Qədim, doğma Qobustanım

# QOBUSTAN

Qobustan Rayon İcra Hakimiyyətinin orqanı

Qəzet 1992-ci ildən çıxır * İCTİMAİ-SİYASİ QƏZET * №001 (201) yanvar 2021-ci il

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda müşavirə keçirilib



***2020-ci ilin ən mühüm yekunu son 30 ilin əsas yekunu torpaqlarımızın işğaldan azad olunmasıdır.***

Azərbaycan 44 gün ərzində tarixi Qələbə qazanaraq öz torpaqlarını azad etdi, düşmənə sarsıdıcı zərbələr endirdi, Ermənistanı məğlub etdi.

Ermənistanın 30 il davam edən işğalçılıq siyasətinə son qoyuldu və tarixi ədalət bərpa edildi.

Prezident İlham Əliyev: Şanlı Qələbəmiz bizim güclü iradəmizi, xalqımızın güclü əzmini bütün dünyaya nümayiş etdirdi, Azərbaycan dövlətinin gücünü nümayiş etdirdi.

Prezident İlham Əliyev: Bu gün müstəqil Azərbaycan dövləti özünün ən şanlı dövrünü yaşayır. Azərbaycan tarixdə heç vaxt bu qədər güclü olmamışdır.

Azərbaycanın dövlətinin gücü yürüdülən siyasət, iqtisadi uğurlar, xalq-iqtidar birliyi, hərbi qüdrəti, regionda oynadığı müsbət roldan qaynaqlanır.

Prezident İlham Əliyev: Biz bu gücdən istifadə edərək qarşımızda duran əsas vəzifəni şərəflə yerinə yetirdik.

Ermənistan ordusu 44 gün ərzində darmadağın edildi, Ermənistan ordusu yoxdur.

Ermənistan faktiki olaraq diz çökdü, məcbur olub noyabrın 10-da kapitulyasiya aktına imza atdı.

Prezident İlham Əliyev: Bu Qələbə tarixdə əbədi qalacaq.

Bu Qələbə bütün dünyaya sübut etdi ki, Azərbaycan dövlətinin sözü ilə əməli arasında heç bir fərq yoxdur.

Deyilmişdi ki:

* *Tarixi Azərbaycan torpaqlarında heç vaxt ikinci erməni dövləti yaradılmayacaq;*
* *Heç vaxt Dağlıq Qarabağa müstəqillik verilməyəcək;*
* *Azərbaycan xalqı bu vəziyyətlə heç vaxt barışmayacaq;*
* *Azərbaycan münaqişəni istənilən yolla həll edəcək.*

Bütün təzyiqlərə, təhdidlərə baxmayaraq, dünyada kifayət qədər güclü erməni lobbisi olmasına, bir çox aparıcı dövlətlərin Ermənistanı dəstəkləməsinə baxmayaraq Azərbaycan dövləti öz vədini yerinə yetirdi.

Prezident İlham Əliyev: Bizim gücümüz, iradəmiz qarşısında Ermənistana verilən dəstək sıfıra bərabər oldu.

Azərbaycan ordusu Ermənistan öz alçaldıcı məğlubiyyətini etiraf edib, diz çökdükdən, ağ bayraq qaldırdıqdan sonra dayanıb.

Prezident İlham Əliyev: Biz tarixi ədaləti bərpa etdik. Biz bütün dünyaya gücümüzü göstərdik.

Azərbaycan müharibə aparılmasını tənzimləyən konvensiyalara, beynəlxalq humanitar hüquqa əməl edərək Ermənistan ərazisinə girmədi, dünyaya ədalətli, əxlaqlı orduya malik olduğunu göstərdi

Prezident İlham Əliyev: Biz özümüzü ermənilər kimi apara bilmərik, biz azərbaycanlıyıq, biz özümüzə hörmət edən xalqıq.

Bu gün Ermənistanı bürümüş böhran onların işğalçılıq siyasətinin nəticəsidir.

### Sülhməramlı qüvvələrin rolu

Sülhməramlı qüvvələrin Fransa nümayəndə heyətinin Qarabağa getməsinə icazə verməsi anlaşılmazdır.

Prezident İlham Əliyev: Biz bu sülhməramlı qüvvələr qarşısında məsələ qoymuşduq ki, bizim icazəmiz olmadan heç bir xarici vətəndaş Dağlıq Qarabağa gedə bilməz.

Prezident İlham Əliyev: Ermənistanın xarici işlər nazirinin Xankəndidə nə işi var? Müharibə onların yadından çıxmasın. Unutmasınlar ki, dəmir yumruq yerindədir.

Azərbaycana xəbərsiz edilən bu səfərlərə son qoyulmalıdır. Biz xəbərdarlıq edirik, əgər belə təxribat xarakterli addımlar atılacaqsa, Ermənistan daha da peşman olacaq.

Qırmızı Xaç istisna olmaqla, heç bir beynəlxalq təşkilat oraya gedə bilməz.

Sülhməramlı qüvvələrin funksiyası noyabrın 10-da təsbit edildi.

Sülhməramlıların humanitar işlərlə məşğul olması imzalanmış bəyanatda təsbit edilməsə də, Azərbaycan buna göz yumur. Çünki orada insanlar yaşayır, müəyyən işlər görülməlidir ki, bu qış orada yaşayan ermənilər üçün problem yaratmasın.

Prezident İlham Əliyev: Dağlıq Qarabağda yaşayan insanlar bizim vətəndaşlarımızdır. Azərbaycan rəhbərliyi altında onlar yaxşı yaşayacaqlar.

Prezident İlham Əliyev: Noyabrın 10-da imzalanmış bəyanat gələcək fəaliyyət üçün əsas olmalıdır. Bu bəyanatdan başqa, hər hansı bir digər sənəd imzalanmayıb.

Xocavənddə təxribat törətdiyi üçün ələ keçirilmiş erməni döyüşçülər hərbi əsir sayıla bilməz, çünki müharibə qurtarıb. Onlar terrorçudur, diversantdır.

Prezident İlham Əliyev: Biz bir çox hallarda humanistlik göstərmişik və Ermənistan tərəfi bunu qiymətləndirməlidir.

### Yeni siyasi mədəniyyət

2020-ci ilin fevral ayında keçirilmiş parlament seçkiləri demokratiya istiqamətində atılmış növbəti ciddi addımdır.

Parlamentin rəhbər orqanları yeniləndi, rəhbərliyə yeni insanlar gəlib. İlk dəfə olaraq parlamentin sədr müavini, parlament komitələrinin sədr və müavin vəzifələrinə müxalifət nümayəndələrinin seçilməsi ölkəmizin demokratik inkişafı baxımından çox böyük əhəmiyyət daşıyır.

Parlamentin çoxpartiyalı parlament olması siyasi sistemimizin gücləndirilməsinə, bütün siyasi qüvvələr arasındakı əməkdaşlığa yönəlmiş ciddi bir addım, yeni siyasi mədəniyyətin təzahürüdür.

Prezident İlham Əliyev: Keçən il partiyaların böyük əksəriyyəti bizim təşəbbüsümüzə müsbət cavab verərək siyasi dialoqa qoşuldular.

Prezident İlham Əliyev: Hazırda bu dialoqda bütün siyasi qüvvələr iştirak edir.

Prezident İlham Əliyev: Siyasi dialoqda iştirak etməyən dəstə xain, satqın ünsürlərdən ibarətdir.

Siyasi dialoq müharibədən əvvəl başlamışdır və müharibə dövründə daha da güclənmişdir.

Müharibə dövründə xain dəstə istisna edilməklə bütün digər siyasi partiyalar və birliklər Azərbaycanın haqq işinə öz dəstəyini verdi.

Təəssüf ki, antimilli qüvvələr öz xain, satqın missiyalarını müharibə dövründə də icra edib, düşmənin dəyirmanına su töküb, ordumuza qarşı çirkin kampaniya aparıb.

Antimilli şuranın liderləri vaxtilə Paşinyanı demokrat, novator, təmiz adam kimi təqdim edirdilər.

Azərbaycan Xalq Cəbhəsi və bu gün onun antimilli şurada cəmləşən qalıqları faktiki olaraq Birinci Qarabağ müharibəsi dövründə fərarilik etmişlər.

İkinci Qarabağ müharibəsi vaxtı da həmin qrupa rəhbərlik edənlərdən biri Amerikada oturub, antimilli mövqedən çıxış edir, düşmən dəyirmanına su tökür.

"Milli Şura"nın ABŞ-dakı liderini maliyyələşdirən və ona istiqamət verənlər antiazərbaycan ermənipərəst dairələrdir.

1990-cı illərin əvvəllərində yürüdülmüş yanlış siyasət və bu siyasətin fəsadları orta məktəb, ali məktəb dərsliklərinə salınmalı, gənc nəsil Şuşanı, Laçını, Xocalını, Kəlbəcəri satanları, fərarilik edənləri, torpaqlarımızın itirilməsinə imkan yaradanları tanımalıdır.

AXC-Müsavat hakimiyyəti belə, faciə gətirmiş, günahsız insanların həlak olmasına şərait yaratmışdır.

Prezident İlham Əliyev: Bu gün ölkəmizdə çox ciddi və fəal siyasi dialoq gedir.

Prezidentin göstərişi ilə partiyaların qeydiyyatı ilə bağlı süni əngəllər aradan qaldırılmış, məsələ müsbət həllini tapmışdır.

Prezident İlham Əliyev: Müharibədən əvvəl artıq ölkəmizdə yeni bir müsbət siyasi iqlim yaranmışdır.

Azərbaycanda bütün vətənpərvər qüvvələrin bir amalı var idi - torpaqlarımızın işğaldan azad edilməsi. Biz, Azərbaycan iqtidarı buna nail olduq.

Prezidentin siyasi dialoqun gələcəyi ilə bağlı baxışı:

* *Partiyalararası dialoqu möhkəmləndirmək;*
* *Ölkə daxilində demokratikləşmə proseslərinə müsbət təsir etmək;*
* *Qələbəni siyasi yollarla möhkəmləndirmək, erməni faşizminin baş qaldırmasına yol verməmək, beynəlxalq müstəvidə keçmiş münaqişə ilə və indiki reallıqlarla bağlı, o cümlədən dağıdılmış ərazilər haqqında məlumat çatdırmaqda partiyaların iştirakı;*
* *Bu məqsədlə partiyaların beynəlxalq partiyalararası qurumlara üzvlüyündən istifadə etmək;*
* *Partiyaların ictimai nəzarətdə iştirakı, çatışmazlıqlar haqqında məsələ qaldırmaq.*

Prezident İlham Əliyev: Biz öz niyyətimizi ortaya qoymuşuq və şadam ki, bütün siyasi qüvvələr bu təşəbbüsə qoşulubdur.

### Kadr islahatları

Cəmiyyətdə kadr islahatları müsbət qarşılanır.

Kadr islahatları aparılıb. Nazirlər Kabinetində rəhbərlik dəyişdirildi. Prezident Administrasiyasında, nazirliklərdə, yerli icra orqanlarında rəhbərlik dəyişdirildi.

Korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə daha ciddi aparılmağa başlanmışdır.

Prezident İlham Əliyev: Korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə sırf kadr islahatları ilə bağlı olan məsələdir. Xoşagəlməz hallar bürokratiya tərəfindən ört-basdır edilirdi.

Prezident İlham Əliyev: Heç kim qanundan üstün deyil. Heç kim üçün heç bir xüsusi status, heç bir imtiyaz yoxdur.

### 2020-ci ilin iqtisadi yekunları

Azərbaycan yeni ilə digər ölkələrə nisbətən daha az itkilərlə çıxıb, iqtisadiyyatımız təqribən 4 faizdən bir qədər çox azalıb.

***(Ardı səh.2-də)***

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda müşavirə keçirilib

*(Əvvəli səh.1-də)*

Şaxələndirmə sayəsində qeyri-neft sənayesi 11 faizdən çox artıb.

Kənd təsərrüfatı 2 faiz artıbdır və daha da çox artacaq.

Neft Fondunun vəsaiti azalmayıb, təqribən 0,5 faiz artıb, ölkə öz valyuta ehtiyatlarını qoruya bilib.

Orta əməkhaqqı və orta pensiya təqribən 13-14 faiz artıbdır.

Bu yaxınlarda qəbul edilmiş qərarlar əsasında şəhid ailələrinin müavinəti 300 manatdan 500 manata qaldırılıb.

TAP-ın istismara verilməsi, Azərbaycan qazının tarixdə ilk dəfə olaraq artıq Avropa məkanına çatması tarixi nailiyyətdir.

Cənub Qaz Dəhlizinin təşəbbüskarı da Azərbaycan olub, əsas maliyyə yükünü də Azərbaycan öz üzərinə götürüb.

Prezident İlham Əliyev: Bir çox ölkələri birləşdirən Cənub Qaz Dəhlizi gələcəkdə o ölkələr və digər Avrasiya ölkələri arasında yeni əməkdaşlıq formatının təməlini qoyur.

Prezident İlham Əliyev: Biz Avrasiyanın enerji xəritəsini yenidən tərtib etdik.

Prezident İlham Əliyev: Biz yaxın günlərdə enerji sahəsində yeni gözəl hadisələrin şahidi olacağıq.

Keçən il sosial sahə ilə bağlı çox böyük işlər görülüb. Bütövlükdə 9 mindən çox şəhid ailəsi dövlət tərəfindən evlərlə və mənzillərlə təmin edilib.

Keçən il 1500 şəhid ailəsi üçün evlər nəzərdə tutulurdu, yanvarın 15-dək bu 1500 ailə evlərlə təmin olunacaq.

Azərbaycanda aparılan islahatlar, biznes iqlimi, investisiya iqlimi Dünya Bankı tərəfindən qeyd edilir.

Azərbaycanı tənqid edən xaricdəki və daxildəki dırnaqarası, qondarma iqtisadçılar bu nəticəni öyrənməli, yanlış tənqidlərə son qoymalıdırlar.

Dünya Bankının "Doing Business" hesabatı ölkələrin, o cümlədən Azərbaycanın reytinqlərinə yenidən baxaraq reytinqimizi artırıb.

Yeni reytinqə görə Azərbaycan:

**- Dünya Bankının "Doing Business" proqramında 190 ölkə arasında 28-ci yerdədir;**

**- 10 ən islahatçı ölkə sırasındadır;**

**- Əhalinin elektrik təchizatı səviyyəsi - dünya miqyasında ikinci yerdədir;**

**- Hökumətin dəyişməyə cavabdehliyi, islahatçı obrazı əmsalına görə beşinci yerdədir;**

**- Hökumətin uzunmüddətli strategiyasına görə 10-cu yerdədir;**

**- Hökumətin siyasi sabitliyi təmin etməsinə görə 11-ci yerdədir;**

**- İnfrastruktur layihələri ilə bağlı - dəmir yolu xidmətlərinin səmərəliliyinə görə 11-ci yer;**

**- Hava yolları xidmətlərinin səmərəliliyi - 12-ci yer;**

**- Avtomobil yollarının keyfiyyəti - 24-27-ci yer;**

**- İnklüziv inkişaf indeksi üzrə Azərbaycan üçüncü yerdədir.**

Dünyan Bankının dünyanın ən nüfuzlu iqtisadı qurumu olması və hesabatın mötəbərliyi xüsusi vurğulanmalıdır.

Azərbaycan işğala, 1 milyon qaçqının olmasına baxmayaraq, bu nailiyyətləri əldə edib, gələcəkdə daha böyük nailiyyətlər əldə ediləcəyi şəksizdir.

***Azərbaycan koronavirusla mübarizədən şərəflə çıxır***

Koronavirus, bütün dünya üçün çox böyük sınaq idi. Azərbaycan bu sınaqdan şərəflə çıxır.

Görülən işlər:

*⁎ Operativ tədbirlər nəticəsində yeni xəstəxanalar tikilib;*

*⁎ Laboratoriyalar alınıb;*

*⁎ Həkimlər səfərbər olunub, koronavirus xəstələrinə qulluq edən həkimlərin maaşları artırıldı, onlar əməkhaqqılarının 3-5 misli həcmində maaş alırlar;*

*⁎ Bir neçə milyard manat dəyərində sosial paket koronavirusdan əziyyət çəkən insanlara, o cümlədən qeyri-formal çalışan və işsiz vətəndaşlara yardım kimi göstərildi;*

*⁎ Bu ay ərzində Azərbaycana peyvənd gətiriləcək, bütün kontraktlar imzalanıb;*

*⁎ İnsanlar kütləvi qaydada bu peyvənddən istifadə edəcək və canımız bu xəstəlikdən qurtaracaq.*

***Post müharibə dövrünə aid vəzifələr***

Ziyan dəymiş 9 mindən çox ev bərpa ediləcək.

Azərbaycan dövləti vətəndaşların itirilmiş əmlakının bərpası üçün vəsaitin verilməsini təmin edir.

Gəncə şəhərində Ermənistan tərəfindən ballistik raketlərlə dağıdılmış yaşayış binalarının əvəzinə yeniləri tikilməli, həmin binalar isə xatirə komplekslərinə çevrilməlidir.

Şəhərlər bərpa olunarkən hər bir şəhərdə dağıdılmış yerlər Ermənistan işğalının açıq səma altında muzeyi kimi qalmalıdır.

Azad olunmuş bütün şəhərlərdə memorial komplekslər, Zəfərimizi əks etdirən abidələrlə bərabər, işğal muzeyləri də yaradılmalıdır.

Həm Azərbaycan vətəndaşları bunu heç vaxt unutmasınlar, həm də xaricdən gələn qonaqlar görsünlər biz hansı vəhşilərə qarşı müharibə aparmışıq, öz torpağımızı və Cənubi Qafqazı hansı bəladan xilas etmişik.

Prezidentin göstərişi ilə, minaların təmizlənməsi ilə məşğul olan ANAMA yaxınlarda yenidən təşkil ediləcək, Ərazilərin Bərpası Agentliyi ilə birləşdiriləcək.

Qurumun işçilərinin sayı artırılacaq, ən müasir texnika ilə təchiz ediləcək.

Müdafiə Nazirliyində ən azı ilkin mərhələdə iki istehkamçı tabor yaradılacaq.

Bütün ərazilərin, şəhərlərin bərpası ilə əlaqədar vahid konsepsiya olmalıdır. Hər şəhər üzrə vahid konsepsiya olmalıdır.

İlk növbədə, böyük yaşayış məntəqələri bərpası ediləcək.

Bu tarixi yaşayış məntəqələrində məskunlaşacaq insanlar öz ailə büdcələrini orada işləyərək təmin edə bilməlidirlər.

Azad olunmuş ərazilərdə torpaq islahatı yeni meyarlarla aparılmalı, hansı torpaqların dövlət torpaq fonduna, meşə fonduna veriləcəyi dəqiq bilinməlidir.

Azad edilmiş torpaqlarda əsas fəaliyyət sahələri kənd təsərrüfatı, kənd təsərrüfatı emalı, turizm və dağ-mədən sahələri olacaqdır.

Ermənilər zəbt etdikləri yerlərdə məskunlaşsa da, heç bir infrastruktur yaratmayıblar, çünki nə iqtisadi və insani resurs, nə də istək olmayıb.

Prezident İlham Əliyev: Onlar heç vaxt bu torpaqları öz torpaqları kimi qəbul etməyiblər. Əks-təqdirdə Şuşa şəhəri belə acınacaqlı vəziyyətdə olmazdı. Əgər onlar tarixi saxtalaşdıraraq Şuşa şəhərini bütün dünyaya erməni şəhəri kimi təqdim etməyə çalışıblarsa, heç olmasa, oraya əl gəzdirərdilər.

Minalardan təmizləmə, şəhərsalma qaydaları, infrastruktur layihələri və tikinti işləri ən müasir standartlara cavab verməlidir.

Bərpa işlərinə qədər dəymiş ziyan hesablanmalıdır.

Dağıdılmış və azad edilmiş bütün torpaqların peyk və dronlar vasitəsilə çəkilişi, sənədləşdirilməsi, əgər belə demək mümkündürsə, pasportlaşdırılması aparılmalıdır.

Dağılmış məntəqələrin yerində şəhərlərin yaradılmasına ancaq beynəlxalq qiymətləndirmə aparılandan sonra başlanacaq ki, məhkəmələrdə qarşı tərəf bizi hansısa faktları saxtalaşdırmaqda ittiham edə bilməsin.

Tarixi abidələrin, ictimai binaların, dövlət binalarının, müəssisələrin, fərdi evlərin və çoxmənzilli binaların dağıdılması sənədləşdirilməli, qiymətləndirilməlidir.

Təzminat davasının başlanması üçün mütləq tanınmış beynəlxalq şirkətlərin rəyi olmalıdır.

İtirilmiş gəlir də hesablamalıdır, bu 30 il ərzində biz bu müəssisələrdən hansı gəliri götürə bilərdik.

Ekologiyaya vurulan ziyan hesablanmalıdır.

İndi azad edilmiş ərazilərdə 1988-ci ildə meşə fondu 228 min hektar təşkil edirdi, 2020-ci ildə isə cəmi 174 min hektar. Yəni, 54 min hektar meşə fondu məhv edilib, qırılıb və bu, erməni cinayətinin növbəti nümunəsidir.

Ermənilər tərəfindən dağıdılmış meşələri bərpa etmək üçün xüsusi proqram tərtib olunmalıdır.

Bəzi beynəlxalq təşkilatlar və şirkətlər ermənilər öz vandallıqlarını həyata keçirməkdə yardım etmiş, torpaqlarımızda qanunsuz biznes fəaliyyəti göstərilmişdir.

Təbii sərvətlərin qanunsuz istismar edən xarici şirkətlər təzminat ödəməsələr, bu məsələ məhkəməyə gedəcək.

Bundan sonra onların biznes fəaliyyəti demək olar ki, dayandırılacaq.

Prezident İlham Əliyev: Xərclərə nəzarət gücləndirilməlidir. Xüsusilə dövlət xətti ilə alınan mallara çox ciddi nəzarət olmalıdır. Bütün yersiz xərclərə son qoyulmalıdır.

Vətən müharibəsində şəhid olmuş qəhrəman hərbçilərimizin doğmalarına, yaxınlarına evlər veriləcəkdir.

Bakı şəhərində, Gəncə şəhərində, Sumqayıt, Mingəçevir şəhərlərində və hər hansı bir başqa yerdə köçkünlər üçün evlər tikilməməlidir.

Köçkünlər, yəni, keçmiş köçkünlər üçün evlər ancaq azad edilmiş torpaqlarda tikiləcək.

Keçmiş məcburi köçkünlərin 52 faizinin şəhərlərdə -Bakıda, Gəncədə, Sumqayıtda yerləşdirilməsi heç bir məntiqə sığmır.

Məcburi köçkünlər üçün nəzərdə tutulmuş evlər şəhid ailələrinə veriləcək. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin balansında olan mənzillər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin balansına verilir.

İkinci Qarabağ müharibəsində şəhid olmuş qəhrəman hərbçilərin yaxınları bu evlərdə yerləşdiriləlidir.

Şəhid ailələri üçün müavinət 300 manatdan 500 manata artırıldı. Digər artımlar da var.

Azad edilmiş torpaqlarda kənd təsərrüfatının inkişafı sistemli xarakter almalıdır və hökumət prioritetlər seçməlidir.

Ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün hansı məhsullar əkilməlidir. Azad edilmiş torpaqların həm bitkiçilik, həm də heyvandarlıq sahəsində çox böyük potensialı var.

Azad edilmiş torpaqların potensialından ərzaq təhlükəsizliyi və ixrac potensialının artırılması üçün istifadə olunacaq.

Aqrar məhsulların ixrac potensialı şaxələndirilməli, yeni bazarlar axtarılmalıdır.

Azad olunmuş torpaqlarda kənd təsərrüfatı xüsusilə bağçılıq sahəsində çox ciddi inkişaf edə bilər.

Bağçılıqda, meyvə istehsalında bizimlə heç kim rəqabət apara bilməz.

Üzümçülüyün böyük potensialı var.

Azad edilmiş torpaqlarda, eyni zamanda, böyük enerji potensialı var.

Azad edilmiş ərazilər dünya üçün yaşıl enerji zonası kimi bir nümunə olacaq.

Xudafərin və Qız qalası hidroqovşaqlarında qurulacaq su elektrik stansiyaları böyük enerji potensialına malikdir. Eyni zamanda, Kəlbəcər və Laçın rayonlarında su elektrik stansiyalarının yaradılması məsələsi gündəlikdədir.

Prezident İlham Əliyev: Biz dünyaya göstərəcəyik ki, nəinki bu əraziləri bərpa etdik, həm də dünyanın ən gözəl məkanlarından birinə çevirdik.

240 meqavat gücündə külək elektrik stansiyasının tikintisinə start verilir, xarici investor bu stansiyanı öz pulu ilə tikəcək. Xarici investorlar azad olunmuş torpaqlara cəlb edilməlidir.

Azad edilmiş torpaqlarda ilkin infrastruktur layihələrinin icrası artıq başlamışdır.

Birinci layihə Şuşa şəhərinə yol layihəsidir.

Digər vacib layihə çox çətin relyefdən keçən Toğanalı - Kəlbəcər yoludur.

Toğanalıdan Kəlbəcərə çəkiləcək yol Laçın rayonuna da davam etdiriləcək.

Horadizdən Zəngilana, oradan Qubadlıya və oradan da Laçın rayonuna qədər yol çəkilməsi üçün də hazırlıq işləri gedir.

Beləliklə, həm şimaldan, həm cənubdan Laçın və Kəlbəcər rayonlarına yol-nəqliyyat infrastrukturu yaradılır.

Ya Laçın, ya da Kəlbəcər rayonunda yeni beynəlxalq hava limanı tikiləcək. Füzuli şəhərində isə beynəlxalq hava limanının tikintisinə artıq az vaxt qalıb.

İki beynəlxalq aeroport Qarabağ zonasını bərpa etmək, yüklərin daşınması, turizmin inkişafı üçün bizə kömək göstərəcək.

Horadiz-Füzuli və ondan sonra Füzuli-Şuşa dəmir yolunun tikintisi də nəzərdə tutulur.

Horadiz-Ağbənd (Zəngilan rayonunda Ermənistan sərhədinə yaxın olan qəsəbə) dəmir yolu da yenidən tikiləcək.

Naxçıvan dəhlizini açmaq üçün bu yol xüsusi əhəmiyyət daşıyır.

Bu yoldan həm Azərbaycan, həm Türkiyə, həm Rusiya, həm Ermənistan, həm də İran istifadə edəcək. Bu yol gələcəkdə çoxtərəfli əməkdaşlıq üçün xüsusi əhəmiyyətə malikdir.

Ermənistan dəmir yolları Rusiya dəmir yollarının mülkiyyətindədir, bizim tərəf müqabilimiz, əlbəttə, Rusiyadır. Biz bu məsələni Rusiya ilə müzakirə edirik.

Sərhədlərin qurulması istiqamətində təxirəsalınmaz işlər aparılmalıdır.

Hazırda Dövlət Sərhəd Xidməti Zəngilan-Qubadlı sərhədinin mühafizəsi ilə məşğuldur. Kəlbəcər-Laçın istiqamətində Müdafiə Nazirliyinin qoşunları xidmət göstərirlər.

Ermənistanda revanşist qüvvələr var və biz onların bəyanatlarını diqqətsiz qoya bilmərik.

İranla bərpa olunmuş sərhəd dostluq sərhədidir, amma sərhəd infrastrukturu mütləq yaradılmalıdır.

Azad edilmiş ərazilərə biz bundan sonra da xarici nümayəndələri, jurnalistləri, diplomatik korpus nümayəndələrini, Azərbaycana səfər edən nümayəndə heyətlərini dəvət etməliyik.

Qarabağ bölgəsinin çox zəngin turizm potensialı vardır. Ona görə indidən turizm marşrutları işlənib hazırlanmalıdır ki, artıq həyat bu bölgəyə qayıdandan sonra vaxt itirmədən turizm sektoru da inkişaf etsin.

Prezident İlham Əliyev: Müharibə cəmi iki aya yaxındır ki, başa çatıb. Amma görün, nə qədər böyük işlər görülüb.

Prezident İlham Əliyev: Biz Qarabağ bölgəsində cənnət yaradacağıq

Məhz 2021-ci ildə Azərbaycan xalqı və bütün dünya görəcək ki, bizim niyyətimiz həyatda öz əksini tapır, bizim planlarımız həyatda gerçəkləşir.

Prezident İlham Əliyev: Vahid Azərbaycan dövləti bundan sonra uğurla, inamla inkişaf edəcəkdir.

# Dövlətin mədəniyyət siyasətində yeni strateji prioritetləri

- Özünəməxsusluğun və milli identikliyin qorunması mədəniyyət siyasətinin qarşısında duran strateji prioritetlərdəndir. Müstəqil dövlətin olmadığı dövrlərdə azərbaycanlıları bir xalq kimi qoruyan, assimilyasiya olunmağa imkan verməyən Azərbaycan mədəniyyəti, Azərbaycan dili, milli mənəvi dəyərlər olub. Azərbaycan dilinin, Azərbaycan mədəniyyətinin qorunub inkişaf etdirilməsi həm də müstəqilliyimizin, vahid dövlətçilik ənənələrimizin və milli birliyimizin ən başlıca simvollarını qorumaq kimi dəyərləndirilməlidir;

- Azərbaycan dilinin qorunması hər kəsin borcudur. Zənginliyi nöqteyi-nəzərindən Azərbaycan dilinin dünya dilləri arasında xüsusi yeri vardır. Son vaxtlar Azərbaycan dilinə daxil edilən bəzi kəlmələr dilin dəyişilməsinə səbəb olur. Dilin orijinallığının qorunması məsələsi media ilə bağlı qurumların, eləcədə telekanalların da öhdəsinə yeni vəzifələr müəyyən edir. Ümummillli lider də öz çıxışlarında Azərbaycan dilinin saflığının qorunması üçün çağırışlar edir, dilimizin türk dilləri ailəsində xüsusi müstəqil mövqeyini vurğulayırdı. Ümummmili liderin təşəbbüsü ilə hər il Azərbaycanda avqustun 1-i Azərbaycan əlifbası və dili günü kimi qeyd olunur;

- Böyük xalqın zəngin dili olmalıdır. Bu gün dünyada 50 milyondan çox insan üçün Azərbaycan dili ana dilidir. Azərbaycan dilinin müxtəlif tərcümə, izahlı, terminoliji, etimolji lüğətlərinin hazırlanıb çap olunmasında müşahidə olunan nizamsızlığın aradan qaldırılması, Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan azərbaycanlıların folklorunun, dialekt və ləhcələrinin öyrənilməsi kimi məsələlər də gündəmə gətirilməlidir. Azərbaycan dili və mədəniyyəti milli və bəşəri dəyərləri də ehtiva edir;

- Milli-mədəni irs nümunələrinin tanıdılması fəaliyyətin əsas prioritetlərindən biri kimi qalmalıdır. Azərbaycan muğamı xalqın milli sərvətidir. Mövcud istiqamətdə UNESCO ilə əməkdaşlıq qarşılıqlı maraqlar əsasında davam etdirməlidir. Muğam sənəti bir neçə ölkədə mövcud olmasına baxmayaraq, Azərbaycan muğam sənətinin mərkəzidir. Ölkəmizin sözügedən statusu qorunmalıdır;

- Mədəniyyət sahəsində strateji fəaliyyət istiqamətləri. Mədəni irsin qorunması. Azərbaycan mədəniyyətinin dünyada təbliği. Gənc nəslin milli ruhda tərbiyə olunması. İstedadlı mədəniyyət xadimlərinin mükafatlandırılması zamanı obyektivliyin gözlənməsi. Tarixi abidələrin qorunması. Yararsız vəziyyətdə olan mədəniyyət ocaqlarının qısa müddət ərzində təftişinin aparılıb yenidən siyahıya alınması. Azad edilmiş torpaqlarda görüləcək işlər;

- Azərbaycanda dini abidələr xüsusi olaraq qorunur və qorunacaq. Prezidentin göstərişi ilə bütün əsas dini abidələr təmir olunub. Bir çoxları, o cümlədən Heydər məscidi yenidən tikilib. Digər məscidlər tarixi simaları qorunmaqla əsaslı təmir edilib. Dünyanın ən qədim məscidlərindən biri olan, 743-cü ildə inşa edilmiş Şamaxı Cümə məscidi yenidən qurulub. Xristian dini abidələri, alban kilsələri, cümlədən Nic qəsəbəsindəki kilsə, Kiş kilsəsi təmir edilib;

- Azərbaycanda xristian dininə mənsub olan abidələr var: alban kilsələri, Kiş kilsəsi, Xudavəng kilsəsi. Artıq işğaldan azad olunmuş Xudavəng kilsəsi öz sahiblərinə, udi qardaşlarımıza qaytarılıbdır. Baxmayaraq ki, ermənilər bunun həm adını dəyişdirdilər, həm də orada aparılan saxtakarlıq işləri nəticəsində onun görünüşünü dəyişdirdilər, onu ermənniləşdirmək istədilər, amma buna nail ola bilmədilər. Udi qardaşlarımız artıq Xudavəng kilsəsində öz ibadətlərini etmişlər. Qafqaz Albaniyasına aid olan bütün digər kilsələr, o cümlədən Nic qəsəbəsindəki kilsə. Heydər Əliyev Fondu tərəfindən təmir olunan bu kilsə müharibə zamanı açılıb və Azərbaycana qarşı əsassız ittihamlar irəli sürənlərə ən gözəl cavab məhz budur;

- Mədəni və dini abidələrin qorunması daim diqqət mərkəzində olmalıdır. Prezident İlham Əliyevin təşəbbüsü ilə çox tarixi abidələr bərpa edilib. Ancaq bu gün dözülməz vəziyyətdə olan kifayət qədər tarixi abidələr var. Yararsız vəziyyətdə olan bu mədəniyyət ocaqlarının qısa müddət ərzində təftişi aparmalıdır, siyahıya alınmalıdır, yeni siyahılar tərtib edilməlidir. Çünki vaxtilə dövlət tərəfindən qorunan abidələrin siyahıları dəqiq tərtib edilməmişdir. Orada qərəzli yanaşma var idi. Bəzi binalar o siyahıdan çıxarılırdı ki, sonra onlar satışa çıxarılsın. Belə hallar da var. Kifayət qədər çox pozuntular var idi. Yəni, bu siyahılarla bağlı aparılan manipulyasiyalar, əlbəttə ki, mədəni irsimizə çox böyük zərbə vurdu;

- Azərbaycanın memarlıq əsərləri dünya səviyyəsində məşhurdur və UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına salınıbdır. Qız qalası memarlıq nümunəsidir, təkrarolunmaz memarlığa malikdir. İçərişəhər, Şirvanşahlar sarayı, digər bölgələrimizdə yerləşən memarlıq abidələri göstərir ki, nə qədər zəngin memarlıq abidələrimiz var. Eyni zamanda, son illər ərzində müasir memarlıq əsərləri yaradılıb. Heydər Əliyev Mərkəzi dünyada seçilən memarlıq nümunələrindən biridir və bir çox reytinqlərdə, bir çox hesabatlarda bir nömrəli müasir memarlıq nümunəsi kimi qeyd edilir. Alov qülləleri də memarlıq nümunəsidir, həm Bakı şəhərinin rəmzi olan alovu əks etdirir, eyni zamanda, ölkəmizin sürətli inkişafını əks etdirir, memarlıq baxımından çox uğurlu bir layihədir. Eyni zamanda, bölgələrdə müa-



sir memarlıq abidələrinin sayı getdikcə artır;

- İnşa olunacaq yeni infrastruktur Qarabağın bütün regionun mədəni mərkəzinə çevrilməsinə səbəb olacaqdır. Füzulidə beynəlxalq aeroport tikiləcəkdir. Oradan Şuşaya məsafə də yaxındır. Çünki vaxtilə sovet dövründə Şuşaya ya gərək Xankəndidən gedəydin, ya da ki, Laçın dəhlizi ilə. İndi isə yeni yol açılır. Ancaq Füzuli beynəlxalq aeroportunun tikilməsi xarici qonaqların Şuşaya dəvət edilməsi üçün imkanlar yaradacaq. Çünki oraya gəlib ondan sonra qısa müddət ərzində Şuşaya getmək mümkün olacaqdır.

Ölkənin beynəlxalq imicinə xidmət edən mədəni layihələr

- 2021-ci il "Nizami Gəncəvi İli"dir. İlin elan olunması dövlət tərəfindən Azərbaycan ədəbiyyatına və mədəni irsinə ayrılan yüksək diqqətinin təcəssümüdür. Dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin yaradıcılığı hər zaman dünya şərqşünaslığının diqqət mərkəzində olmuşdur. 2021-ci il Prezident İlham Əliyevin Sərəncamı ilə "Nizami ili" elan olundu. 2021-ci ildə Nizaminin 880 illik yubileyini qeyd ediləcək, yubiley həm Azərbaycanda, həm dünyada geniş qeyd olunmalıdır. Nizami, Nəsimi, Füzuli və digər dahi Azərbaycan şairləri dünya ədəbiyyat xəzinəsinə çox böyük töhfələr vermişlər;

- Şuşa tarixdə olduğu kimi, bu gün də bütün regionun mədəni paytaxtına çevrilməlidir. İşğaldan azad edilmiş ərazilərdəki tarixi abidələrin əsl siması bərpa olunmalıdır. Şuşa şəhərinin Azərbaycan mədəniyyətinin paytaxtı elan edilməsi qeyd olunan hədəflərə nail olmağımızı sürətləndirəcəkdir;

- Şuşanın mədəni həyatı qısa müddət ərzində bərpa olunmalıdır. Bu il Şuşada Vaqif poeziya günləri və "Xarı bülbül" festivalı bərpa olunmalıdır. Bu cür tədbirlər bütün regionun mədəni brendinə çevrilməlidir. İşğaldan azad edilmiş torpaqlarda muğam mərkəzləri yaradılmalıdır. Müharibə zamanı alban-xristian kilsəsinin təmirdən sonra açılışı olubdur. Rus-pravoslav kilsələri, sinaqoqlar, katolik kilsə, gürcü kilsələri, Bakıda yerləşən erməni kilsəsi - bütün bunlar dövlət tərəfindən qorunur.

Zəngin Azərbaycan mədəniyyəti xalqın vizit kartıdır

- Azərbaycan dünyanın mədəni xəzinəsinə öz töhvəsini vermiş nadir ölkələrdəndir. Dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış nadir şəxsiyyətlərdəndir. Nəhəng sənətkarın xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq irsi əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yerini qoruyub saxlamaqdadır. Nizami dühası hər zaman dünya şərqşünaslığının diqqət mərkəzində olmuşdur. Ölkəmizdə Nizami sənətinin öyrənilməsi və tanıdılması sahəsində xeyli iş görülmüş, əsərlərinin nizamişünaslıqda yüksək qiymətləndirilən elmi-tənqidi mətni hazırlanmış, kitabları nəfis tərtibatda və kütləvi tirajla nəşr edilmişdir. Nizaminin ədəbiyyatda və incəsənətdə yaddaqalan obrazı yaradılmışdır. Mütəfəkkir şairin doğma şəhəri Gəncədə məqbərəsi, Bakıda, Sankt-Peterburqda və Romada heykəlləri ucaldılmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının Ədəbiyyat İnstitutu və Milli Azərbaycan Ədəbiyyatı Muzeyi Nizami Gəncəvinin adını daşıyır. Böyük Britaniyanın Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzi uğurla fəaliyyət göstərir;

- Aşıq sənəti unikal sənət növüdür və milli folklorumuz haqqında xəbər verən əsas mənbədir. Aşıq sənəti təkrarolunmaz sənətdir. Haqlı olaraq aşıq sənəti sırf Azərbaycan sənəti kimi qəbul edilir. Gənclərin milli incəsənətə, milli musiqiyə, muğam sənətinə böyük maraqla yanaşması təqdirəlayiq haldır və bu gurlu təcrübə inkişaf olunmalıdır;

- Tətbiqi sənət nümunələrinin inkişafı mədəniyyət siyasətinin qarşısında duran önəmli vəzifələrindəndir. Xalçaçılıq sənəti xalqımızın fəxr mənbələrindən biridir. Azərbaycan tarixi memarlığı dünya səviyyəsində məşhurdur, unikaldır. Azərbaycanda bu gün də nadir memarlıq əsərləri yaradılır. Bir çox hesabatlarda bir nömrəli müasir memarlıq nümunəsi kimi qeyd edilən Heydər Əliyev Mərkəzi, Bakı şəhərinin rəmzi olan alovu əks etdirən Alov qüllələri belə nümunələrdəndir.

Multikultural dəyərlər Azərbaycan milli mədəniyyətinin ayrılmaz keyfiyyətidir

- Azərbaycanda yaşayan bütün xalqların milli mədəniyyətinin qorunması strateji əhəmiyyət kəsb edir. Azərbaycanda yaşayan ermənilər bu ölkənin vətəndaşlarıdır. Bu gün Qarabağ bölgəsində yaşayan ermənilər də, ancaq Azərbaycan dövləti çərçivəsində normal yaşaya bilərlər. İşğal edilmiş torpaqlarda yaşayan erməni əhalisinin real sayı təqribən 60 min ətrafında idi. Dağıdılmış bütün tarixi abidələrimiz, mədəniyyət ocaqlarımız siyahıya alınmalı, onların əvvəlki görüntüsü bərpa olunmalıdır;

- Multikultural dəyərlərin qorunması Azərbaycanın UNESCO ilə əməkdaşlığının əsas istiqamətlərindən biri olmalıdır. Azərbaycanda multikultural cəmiyyəti bir çox ölkələr üçün örnək olmalıdır. Bakıda səfərdə olan Roma Papası Fransiskin, İslam Əməkdaşlıq Təşkilatının rəhbərlərinin bəyanatlarında bu fakt xüsusi vurğulanır.

Erməni vandalizmi bəşəriyyətə qarşı törədilmiş cinayətdir

- Erməni vandalizmi və mənimsəmə siyasəti. Ermənistan Azərbaycana qarşı mədəni soyqırımı törədib. Onları müsəlman əhatəsində olan sivilizasiyalı bir məkan kimi təqdim etməyə çalışan Qərb dairələri buna laqeyd qalmamalıdır. Ermənilər bütün qonşulara meydan oxuyur, əsassız torpaq iddiası irəli sürürlər. Ermənilər qonşu xalqların, xüsusən azərbaycanlıların musiqi, mətbəx ənənələrini oğurlayırlar. Azərbaycan torpaqlarını işğal etdikləri vaxt ermənilər altmışdan çox məscidi dağıdıblar, buna heç kim reaksiya vermir. Heç bir beynəlxalq təşkilat Ermənistanı qınamır.

Beynəlxalq münasibətlər müstəvisində mədəniyyət diplomatiyanın davamıdır

- Mədəniyyət sahəsində beynəlxalq riyakarlıq bağışlanmazdır. Heç bir beynəlxalq təşkilat ermənilər tərəfindən dağıdılan müsəlman abidələri ilə maraqlanmır. Məscidlərimizi məhfur düşmən dağıdıb. Altmışdan çox məscid işğal edilmiş və azad edilmiş torpaqlarda dağılıb və buna heç kim reaksiya vermir. Heç bir beynəlxalq təşkilat Ermənistanı qınamır. Biz erməni kilsəsini qoruyuruq, erməni xalqı ilə heç bir problemimiz yoxdur və Azərbaycanda yaşayan ermənilər vətəndaşlarımızdır. Bu gün Qarabağ bölgəsində yaşayan ermənilər də, əminəm, bunu artıq başa düşürlər ki, onlar ancaq Azərbaycan dövləti çərçivəsində normal yaşaya bilərlər.

# Şahin Seyidzadə Qobustan rayonunda səyyar qəbul həyata keçirib





**Azərbaycan Respublikası Milli Məclisində 50 saylı Abşeron-Qobustan seçki dairəsini təmsil edən deputat Şahin Seyidzadə Qobustan rayonunda səyyar vətəndaş qəbulu keçirib. Rayonun 10-a yaxın yaşayış məntəqəsini (Bəklə, Çalov, Cəyirli, Çuxanlı, Ərəbşalbaş, Nabur, Sündü, Təklə, Təklə Mirzəbaba, Xilmilli kəndləri) əhatə edən fərdi vətəndaş qəbulları keçirib.**

R.Hüseynov adına Cəyirli kənd ümumi orta məktəbi və Təklə kənd tam orta məktəbində keçirilən fərdi vətəndaş qəbullarında ümumilikdə 40-dan çox Qobustan sakini iştirak edib. Deputat Şahin Seyidzadə tərəfindən pandemiyadan irəli gələrək xüsusi qaydalara əsasən həyata keçirilən fərdi qəbullarda əsasən məşğulluq, sosial təminat, infrastruktur, kommunal, təhsil, hüquq, kənd təsərrüfatı, torpaq və əmlak məsələləri ilə bağlı müraciətlər səsləndirilmişdir.

Məlumat üçün qeyd etmək lazımdır ki, deputat Şahin Seyidzadə tərəfindən 2020-ci ilin Aprel ayından etibarən fərdi vətəndaş qəbulları pandemiyadan irəli gələrək onlayn və səyyar formada həyata keçirilir. 2020-ci ilin Sentyabr ayının sonlarında Qobustan rayonunun Bədəlli, Ərəbqədim, Şıxzahırlı və Yekəxana kəndlərində səyyar qəbul, davamında isə onlayn qaydada fərdi qəbullar deputat tərəfindən həyata keçirilmişdir.

# Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Qobustan rayon şəhidləri aşağıdakı medallarla təltif edildi




























**Şikarov Nəcəf Şikar oğlu - kapitan (ölümündən sonra)**

- "Qarabağ" ordeni ilə;
- "Fizulinin azad olunmasına görə" medalı ilə;
- "Xocavəndin azad olunmasına görə" medalı ilə;
- "Vətən uğrunda" medalı ilə;

**Nəhmətov Ceyhun Ehtiqad oğlu - baş leytenant (ölümündən sonra)**

- "Vətənə xidmətə görə" 3-cü dərəcəli medalı ilə;
- "Zəngilanın azad olunmasına görə" medalı ilə;
- "Vətən uğrunda" medalı ilə;

**İbadov Murad Yusif oğlu - baş leytenant (ölümündən sonra)**

- "Vətən uğrunda" medalı ilə:

**Abdurahmanlı Sübhan Mahir oğlu - gizir (ölümündən sonra)**

- "Fizulinin azad olunmasına görə" medalı ilə;
- "Vətən uğrunda" medalı ilə;

**Vəliyev Elyar Arif oğlu - gizir (ölümündən sonra)**

- "Vətən Müharibəsi Qəhrəmanı" adı ilə;
- "Cəbrayılın azad olunmasına görə" medalı ilə;
- "Vətən uğrunda" medalı ilə;

**Şıxəliyev Mehti Yalçın oğlu - kiçik gizir (ölümündən sonra)**

- "Qarabağ" ordeni ilə;
- "Cəbrayılın azad olunmasına görə" medalı ilə;
- "Fizulinin azad olunmasına görə" medalı ilə;
- "Şuşanın azad olunmasına görə" medalı ilə;
- "Vətən uğrunda" medalı ilə;

**Mecdinov Xalid Zahir oğlu - çavuş (ölümündən sonra)**

- "Cəbrayılın azad olunmasına görə" medalı ilə;
- "Vətən uğrunda" medalı ilə;

Qarayev Tural Şahin oğlu - kiçik çavuş (ölümündən sonra)

- "Fizulinin azad olunmasına görə" medalı ilə;
- "Vətən uğrunda" medalı ilə;

**Ağayev Zamin Zülfiqar oğlu - əsgər (ölümündən sonra)**

- "Vətən uğrunda" medalı ilə;

**Baxışov Cahangir Əmrah oğlu - əsgər (ölümündən sonra)**

- "Vətən uğrunda" medalı ilə;

**Əhədov Mehrac İntiqam oğlu - əsgər (ölümündən sonra)**

# Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Qobustan rayon şəhidləri aşağıdakı medallarla təltif edildi




















































- "Fizulinin azad olunmasına görə" medalı ilə;

- "Vətən uğrunda" medalı ilə;

**Əhmədov Cavanşir Xeyrulla oğlu - əsgər (ölümündən sonra)**

- "Vətən uğrunda" medalı ilə

**Əhmədov Səbuhi Ziyafət oğlu - əsgər (ölümündən sonra)**

- "Vətən uğrunda" medalı ilə;

**Əmirli Əmirşah Səttar oğlu - əsgər (ölümündən sonra)**

- "Vətən uğrunda" medalı ilə;

**Hacıyev Sərxan Eldar oğlu - əsgər (ölümündən sonra)**

- "Vətən uğrunda" medalı ilə;

**Qaçayev Röyal Fərman oğlu - əsgər (ölümündən sonra)**

- "Vətən uğrunda" medalı ilə;

**Quliyev Həsən Yalçın oğlu - əsgər (ölümündən sonra)**

- "Fizulinin azad olunmasına görə" medalı ilə;

**Mayılov Murad Gülümxan oğlu - əsgər (ölümündən sonra)**

- "Vətən uğrunda" medalı ilə;

**Məcidov Səbuhi Ağalətif oğlu - əsgər (ölümündən sonra)**

- "Vətən uğrunda" medalı ilə;

**Məmmədov Elxan Bədəl oğlu - əsgər (ölümündən sonra)**

- "Vətən uğrunda" medalı ilə;

**Məmmədov Bəxtiyar Bayramşah oğlu - əsgər (ölümündən sonra)**

- " Fizulinin azad olunmasına görə" medalı ilə;

- "Vətən uğrunda medalı ilə;

**Nadirov Fədail Fərhad oğlu - əsgər (ölümündən sonra)**

- "Fizulinin azad olunmasına görə" medalı ilə;

- "Vətən uğrunda" medalı ilə;

**Rəsulov Teymur Yavus oğlu - əsgər (ölümündən sonra)**

- "Vətən uğrunda" medalı ilə;

**Rzayev Adil Akif oğlu - əsgər (ölümündən sonra)**

- "Vətən uğrunda" medalı ilə;

**Təhməzov Rəşad Qərib oğlu - əsgər (ölümündən sonra)**

- "Vətən uğrunda" medalı ilə;

**Vəliyev Əli Kamran oğlu - əsgər (ölümündən sonra)**

- "Vətən uğrunda" medalı ilə

Təltif edilmişdir.

Hər birinizlə fəxr və qürur duyuruq.

XARI BÜLBÜLƏ CAN VERƏNLƏRİ UNUTMARIQ!

*Siyahını hazırladı:*
***Mirzə Mirzəli***

# Deputat Şahin Seyidzadə seçicilərə 2020-ci il üzrə hesabat təqdim etdi

***Milli Məclisin deputatı Şahin Seyidzadə təmsil etdiyi 50 saylı Abşeron-Qobustan seçki dairəsindən olan seçicilərə 2020-ci ildə görülən işlərlə bağlı hesabat təqdim edib.***

Hesabatda müraciətlər, qanunvericilik, parlamentlərarası və ictimai fəaliyyətlər, həmçinin media sahəsi ilə bağlı fəaliyyətlər kimi bir çox məsələ yer alıb. Ötən il Yaz sessiyasının yekunlarına dair hesabat təqdim edərək, müraciət etmiş sakinlərə birbaşa poçt vasitəsi ilə hesabat yollayan deputat, öz paylaşımında təqdim etdiyi hesabatın da müraciətçilərə poçt vasitəsilə göndəriləcəyini planlaşdırdığını qeyd edib.

Deputat Şahin Seyidzadə bu barədə öz sosial şəbəkələrdə olan hesablarında paylaşım edib.

Paylaşımı təqdim edirik:

*” Əziz Abşeron və Qobustan sakinləri,*

*Bu gün - 9 fevral 2021-ci il, Vİ çağırış Milli Məclisə növbədənkənar seçkilərdən 1 il ötür!*

*Geridə qalan 1 il ərzində Sizlərlə daima birlikdə və əlaqədə olduq, pandemiya və müharibə dövründə bir daha sübut etdik ki, biz birlikdə güclü ola bilərik!*

*Geridə qoyduğumuz il sözsüz ki, Qarabağ zəfəri və hələ də davam edən koronavirus pandemiyası ilə mübarizə dövrü kimi yadda qaldı. İstər müharibə dövrü, istərsə də pandemiya dövründə həyata keçirilən bütün fəaliyyətimizi vətəndaşlara xidmət göstərilməsi, qanunvericiliyin təkmilləşdirilməsi, Azərbaycan Respublikasının davamlı və dayanıqlı inkişafına dəstək verilməsinə yönəltdik.*

*Bu 1 il ərzində Parlament üzvü olaraq fəaliyyətdə 4 əsas:*

*- ”vətəndaşlarla iş”,*
*- ”qanunvericilik sahəsində iş”,*
*- ”parlamentlərarası fəaliyyət”,*
*- ”ictimai fəaliyyət və kommunikasiya”*

*istiqamətləri müəyyən edərək, sözügedən istiqamətlər çərçivəsində fəaliyyətin sözdən əmələ prinsipləri əsasında təşkili üçün daima səylər göstərdik.*

*2020-ci il ərzində pandemiya dövrünün şərtlərinə uyğun olaraq 289 vətəndaşın iştirakı ilə fərdi formada 28 onlayn və səyyar vətəndaş qəbulu həyata keçirdik. Bu dövr ərzində 701 müraciət daxil olmuş, onlardan Mərkəzi və Yerli İcra Hakimiyyəti orqanlarına ünvanlaraq 63.8%-i icra olunub, 20.9%-i ilə bağlı icraat davam etməkdə, 15.3%-i isə qanunvericiliyin tələblərinə uyğun olmamışdır. Vətəndaşlarla daima qarşılıqlı əlaqəni təmin etmək məqsədi ilə, faydalı məlumat, xəbər, elan, xüsusi hadisə və tarixlər barədə mütəmadi olaraq SMS və ”WhatsApp” 14280-dən çox mesaj yollanılmışdır.*

*Əziz seçicilər, geridə qalan 1 il ərzində fərdi, şəhər, kənd, qəsəbə, ümumilikdə Abşeron və Qobustan rayonları ilə bağlı qaldırılan məsələlərə dair bir çox addımlar atıldı. 1 illik fəaliyyəti əhatə edən hesabatı Sizlərə təqdim edərək, 2020-ci il ərzində olan hər bir müraciət sahibinə təqdim olunmuş hesabatın poçt vasitəsi ilə yollanılmasını planlaşdırdığımızı diqqətinizə çatdırırıq.*

*Xatırlatmaq istərdim ki, əlçatanlığı təmin etmək üçün aşağıdakı kommunikasiya vasitələri ilə daim əlaqədə olmağımız mümkündür.*

*Telefon: 0506002550 (Zəng/”WhatsApp”/”Telegram”)*

*E-mail: 50@seyidzade.az*

*”Facebook”, ”Twitter”, ”Linkedin”, ”YouTube”/shahinseyidzade*

*Telegram kanalı: https://t.me/shahinseyidzade*

*2020-ci il ərzində vətəndaşlar tərəfindən ünvanlanan müraciətlərin araşdırılaraq, səlahiyyət və qanunvericiliyin imkanları çərçivəsində həlli istiqamətində köməklik göstərmiş bütün dövlət qurumlarına, fəaliyyətimizin işıqlandırılmasında daima dəstək verən media nümayəndələrinə öz təşəkkürümü bildirirəm!*

***Dərin hörmətlə,***
***Şahin Seyidzadə***
***50 saylı Abşeron-Qobustan seçki dairəsi üzrəAzərbaycan Respublikası Milli Məclisinin deputatı”***

**Hesabatla tanış olmaq üçün: http://seyidzade.az/hesabat/50sd_Hesabat_2020.pdf**

## Cənnətdəki doğum günün mübarək, şəhidim

### Kapitan Şikarov Nəcəf Şikar oğlu



***Nəcəf Şikarov 1985-ci il yanvarın 24-də Şamaxı rayonunun Təklə kəndində (indiki Qobustan rayonu) anadan olub.1992-1999-cu illərdə Xətai rayonunda 24 nömrəli tam tam ortam məktəbində, 1999-2002-ci illərdə isə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil alıb. 2002-2006-cı illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) ali hərbi təhsil alıb.***

Nəcəf Şikarov 2007-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin ”N” saylı hərbi hissəsində xidmət edirdi.

Azərbaycan Ordusunun kapitanı olan Nəcəf Şikarov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nəcəf Şikarov noyabrın 9-da Xocavənd döyüşləri zamanı şəhid olub. II Fəxri Xiyabanda dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zamanı igidliyin və mərdliyin nümayiş etdirilməsinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 09.12.2020-ci il tarixli Sərəncamına əsasən Nəcəf Şikarov ”Qarabağ” ordeni ilə təltif edildi.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Nəcəf Şikarov ölümündən sonra ”Vətən uğrunda” medalı ilə təltif edildi.

Füzuli və Xocavənd rayonlarının işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Nəcəf Şikarov ölümündən sonra ”Füzulinin azad olunmasına görə” və ”Xocavəndin azad olunmasına görə” medalları ilə təltif edilib.

Allah bütün şəhidlərimizə rəhmət etsin.

***Mirzəli Mirzə***

## Qələbədə onların da payı var...



**Abdurəşidov Qorxmaz Tələt oğlu**

Abdurəşidov Qorxmaz Tələt oğlu 22 sentyabr 1997-ci ildə Cəmcəmli kəndində anadan olmuşdur. Rauf Babaşov adına Cəmcəmli kənd tam orta məktəbin birinci sinfinə qəbul edilmiş və tam orta təhsilə yiyələnmişdir. Həmişə dərslərini yaxşı oxumuş, idman yarışlarında və olimpiadalarda yüksək nəticələr əldə etmişdir. Bakı Neft Energetika Kollecinin qiyabi şöbəsinə qəbul olmuşdur.

2015-ci ildə həqiqi hərbi xidmətə çağrılmışdır. Hərbi xidmət zamanı Gəncə şəhərində hərbi kursdan keçmişdir. Məlum Aprel döyüşlərində fəallıq göstərmişdir.

2017-ci ildə həqiqi hərbi xidmətdən ehtiyata buraxılmışdır. Qiyabi təhsil almaqla yanaşı həm də işləmişdir.

Vətən Müharibəsi başlananda könüllü olaraq cəbhəyə yola düşmüşdür. Talış və Suqovuşan istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Suqovuşanda gedən döyüşlərdə Qorxmaz həmyerlilərimiz -ərəbdəqimli Ramil Rəcəbli və naburlu Famil Üzeyirov ilə birlikdə ağır yaralanmışdılar.

Qorxmaz Abdurəşidov xeyli müddətdir ki, hərbi hospitalda müalicə olunur. Bu müddət ərzində hospitalın həkimləri ona yüksək səviyyədə tibbi xidmət göstərmişlər.Həkim Arzu Əhmədova ona öz doğması kimi qayğı ilə yanaşmış, eyni zamanda həkimlər- Səlahəddin Təhmazov, Mahir Əliyev, Gülnarə Nuruzadə hər an onun yanında olmuşlar. Qorxmaz bu yazı vasitəsilə onlarla yanaşı bütün hospitalın işçilərinə minnətdarlığını bildirir.

Həkimlərin rəyinə əsasən o, bir neçə günlüyə evə buraxılıb. Onun doğma kəndinə dönməsi böyük ruh yüksəkliyi ilə qarşılandı.

Qorxmaz Abdurəşidov hal-hazırda müalicəsini davam etdirir. Bizdə ona uzun ömür, can sağlığı və sağlam həyat arzulayırıq.



**Əmirov Röyal Saleh oğlu**

Əmirov Röyal Saleh oğlu 28 oktyabr 2000-ci ildə Cəmcəmli kəndində anadan olub. 2007-ci ildə birinci sinfə qəbul olub və 2018-ci ildə doğma kənddəki tam orta məktəbi bitirib.O, oxuduğu müddətdə məktəbdə keçirilən bütün tədbirlərdə , o cümlədən hərbi vətənpərvərlik mövzusunda bədii kompazisiyaların fəal iştirakçısı olmuşdur.

2018-ci ildən oktyabr ayında həqiqi hərbi xidmətə çağrılıb. 2020-ci ilin aprel ayında ordudan ehtiyata burxılsa da valideynlərinin xeyir-duası ilə xüsusi təyinatlı silahlı qüvvələrdə müddətdən artıq müqavilə əsasında xidmətə başlayıb.

Bu sahə üzrə kurslardan keçərək, hərbi işlərə yaxından bələd olub.

Məlum 27 sentyabr 2020-ci il başlanan Vətən müharibəsində iştirak edib. Cəbrayıl, Fizuli, Hadrut, Kəlbəcər, Şuşa istiqamətində gedən döyüşlərdə bir döyüşçü kimi iştirak edib.Şuşanın ”Qırmızı bazar” adlanan yerində düşmənin çoxsaylı qüvvələri ilə qızğın döyüşləri olub. Bu döyüşdə düşmən məğlubiyyətə uğrayıb.

Lakin Röyal Əmirov həmin döyüşdə yaralanıb. Hal-hazırda da müalicəsini hərbi hospitalda davam etdirir.

Ali baş Komandan İlham Əliyevin sərəncamına əsasən ” Cəbrayılın azad olunmasına görə”, ”Şuşanın azad olunmasına görə” və ”Hərbi xidmətdə fərqlənməyə görə” medalları ilə təltif olunub.

Röyalın Əmisi Əmirov Vasif Sarxan oğlu da I Qarabağ döyüşlərində iştirak etmişdir. Onun döyüş yolu Ağdam və Tərtər istiqamətində keçmişdir. 1994-cü ildə Güllücə kəndi uğrunda gedən qızğın döyüşdə itkin düşmüşdür.

Röyalın arzusu sağlamlığına qovuşub, hərbi xidmətini yenidən davam etdirməkdir .



**Xəlilli Anar Balaxəlil oğlu**

Anar Xəlilli rayonumuzun Qurbançı kəndində dünyaya göz açıb.2007-ci ildə birinci sinfə qəbul olmuş və 2018-ci ildə tam orta məktəbi bitirmişdir. Dərslərini yaxşı oxuduğuna və nizam-intizamlılığına görə müəllimləri ondan həmişə razılıq etmişdir. Məhz ona görə də məktəbin ”Şərəf lövhəsi” ndə şəkli yer almışdır.

Orta məktəbi bitirdikdən sonra sənədlərini ali məktəbə verir. Ödənişli əsaslarla məktəbə qəbul olur. Lakin o, bununla razılaşmır.Hazırlaşıb yüksək nəticə əldə etmək istəyir.

2019-cu ilin aprel ayında həqiqi hərbi xidmətə çağırılır. Həqiqi hərbi xidmətdəki fəaliyyətinə görə hərbi hissə komandiri tərəfindən onun haqqında valideynlərinə dəfələrlə təşəkkür məktubları gəlir.

Hərbi xidmətini başa vurmasına saylı günlər qalır. Lakin bu ərəfədə mənfur ermənilər bizə qarşı ədalətsiz müharibəyə başlayır.

Anar Xəlilli işğal olunmuş torpaqlarımızın azad olunması uğrunda gedən döyüşlərə qoşulur.

Bir topçu kimi A.Xəlilli Fizuli, Xocavənd, Zəngilan, Qubadlı, Laçın istiqamətində düşmənə qarşı gedən döyüşlərdə iştirak etdi və fəal döyüşən bir hərbçi kimi tanındı.

Məhz ona görə də Ali Baş Komandanın sərəncamına əsasən Anar Xəlilli ”Fizulinin azad olunmasına görə”, ”Zəngilanın azad olunmasına görə” , ”Qubadlının azad olunmasına görə”, və ”Laçının azad olunmasına görə” medalları ilə təltif olunub. Eyni zamanda ona çavuş rütbəsi verilib. Hal-hazırda hərbi xidmətdədir, ehtiyata buraxılma əmrini gözləyir.

Söhbət zamanı Anar Xəlillinin əmisi Pənah müəllim bildirdi ki, bu müharibədə iştirak edən döyüşçülərimiz sələflərinin qəhrəmanlığını davam etdirməklə döyüşdülər, onların yolunu zəfərlə tamamladılar. Mən də sevinirəm ki, bu zəfərdə mənim qardaşım oğlu Anarın da payı vardır. Anarın vətənpərvər bir oğul kimi böyüməsini onun gənclik yaşlarından duyurdum.

***Məhəmməd Bayramov***
***Jurnalistlər Birliyinin üzvü***

# Cəyirli şəhidləri

*Şəhidlər vurulanda yox ,unudulanda ölür !*
*Şəhidlər şərəf-qeyrət, ucalıq zirvəsidir,*
*Şəhidlər azadlığın od-şimşək zərrəsidir,*
*Şəhidlər tarixləşən istiqlal türbəsidir.*
*Şəhidlər şimşək kimi, buludlar saxlamazlar.*
*Şəhidlər ölməzlərdir, ölməzi ağlamazlar!*

Oktay Zəngilanlının yazdığı bu sətirlərdəndə aydın olur ki,səhidlər bizim qürür və and yerimizdir .Torpaq su ilə qarışanda palçıq qan ilə qarışanda vətən olur .Vətən bizim anamız namusumuzdur ona görədə bu yolda can verməyə hər birimiz hazırvə müzəvvərik .Ana yurdumuz Azərbaycan tarix boyu mənfur düşmənlər tərəfindən dağıntılara hücümlara məruz qalmışdır .1-ci Qarabağ müharibəsi - 1991-1994-cü illərdə Azərbaycanın Dağlıq Qarabağ ərazisi üstündə Ermənistanla Azərbaycanarasında şiddətli hərbi ixtilaf. Müharibə 1988-ci ildən başlayaraq Ermənistan SSR Azərbaycan SSR-ə qarşı irəli sürdüyü ərazi iddialarına əsaslanan Qarabağ münaqişəsinin davamı olmuşdur.

Hərbi əməliyyatlar 1994-cü ilin may ayında Azərbaycan və Ermənistan arasında imzalanmış atəşkəslə başa çatmışdır. İxtilafın nəticəsində 30.000 yaxın insan həlak olmuş, Azərbaycanın Dağlıq Qarabağ ərazisi və ətrafında yerləşən 7 inzibati rayonu Ermənistan silahlı qüvvələrinin işğalına məruz qalmışdır.Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib.

Cənab Prezident xalqa müraciət edərək xalqı 30 ilə yaxın olan bu haqsızlığa son qoymğa və öz əzəli -əbədi torpaqlarımızın azadlığı üçün bir olmağa çağırdı .Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

İkinci Qarabağ müharibəsi xalqımız üçün Vətən müharibəsidir.

Azərbaycan ordusu döyüş meydanında tarixi ədaləti bərpa etdi. Şanlı Azərbaycan Ordusu Qarabağı düşməndən azad etdi.Xalqımız müzəffər ordumuz Cənab Alı Baş Komandanımız şanlı zəfər çaldı .Bu zəfər yolunda bir çox itkilər verdik əlbbətdə müharibə bizə qələbə sevinci ilə yanaşı şəhid acısı terror acısı yaşatdı .Müharibədə Azərbaycanın hər bir kəndinən rayonundan şəhərindən minlərlə oğullar qəhramnlıq göstərərək şəhid oldu .Həmin igid şəhidlərdən ikisi Qobustan rayon Cəyirli kəndinin sakinləri,igid oğulları Baş Leytinat İbadov Murad Yusif Oğlu və könüllü Məmmədov Elxan Bədəl oğludur onların həyatı haqqında aşağıda qeyd etmişik .






**Məmmədov Elxan Bədəl oğlu** 1998-ci il 15 may tarixində Qobustan rayonu Cəyirli kəndində anadan olub. 2004-cu ildə Qobustan rayon Cəyirli kəndinin Ayaz Quliyev adına tam orta məktəbin 1-ci sinifinə daxil olub. 2015-ci il də həmin məktəbi bitirmişdir. 2016-cı il İyul ayının 1-dən Beyləqan rayonu N nömrəli korpusa Həqiqi hərbi xidmət üçün yollanmışdır. 3ay orda xidmət etdikdən sonra Ağcabədi rayonu Qiyaməddinli kənd N nömrəli korpusunda xidməti əsgər olmuş, 2018-ci il 1yanvarda xidməti başa vurub təxris olunmuşdur. 2020-ci il İyul döyüşlərindən sonra vətənə xidmət etmək üçün könüllü olaraq qeydiyyatdan keçmişdir. Sentyabrın 27-dən ikinci Qarabağ, Vətən müharibəsi başlayır və Elxan könüllü olaraq döyüşə gedir. Elxan müharibə başlayan gündən on xətdə xidmət etməyə başamış və Füzuli rayonunun Kərimbəyli kəndinin azad olunması uğrunda gedən qanlı döyüşlərdə ağır yaralanaraq xəstəxanaya yerləşdirilmişdir. 19gün ağır həyət mübarizəsi aparmasına baxmayaraq 29 oktyabr səhər saatlarında şəhid olmuşdur. Şəhidimiz doğulduğu kənddə torpağa ttapşırılmışdır.

**Şəhid İbadov Murad Yusif oğlu**

İbadov Murad Yusif oğlu 1993-cü il 29 dekabr tarixində Qobustan rayon Cəyirli kəndində anadan olub.2000-ci ildə Qobustan rayon Cəyirli kəndinin Rasim Hüseynov adına ümumi orta məktəbin 1-ci sinfinə daxil olub.2009 -cu il dq həmin məktəbi bitirdikdən sonra Qobustan rayon Cəyirli kənd Ayaz Quliyev adına tam orta məktəbdə təhsilini davam etdirib.2011 ci oldə məktəbi bitirdikdən sonra,Heydər Əliyev adına Hərbi Akademiyaya daxil olub.2015-cı il dekabr ayında təhsilini bitirir.2016 - cı il yanvar ayının 1-indən Bərdə korpusunda işə baslayır.2016-cı il Aprel döyüşlərində iştirak etdikdən sonra Tərtər rayon N saylı hərbi hissədə Leytenant olaraq xidmətini davam etdirir.2020-ci il sentyabr ayının 27-si ikinci Qarabağ müharibəsi başlayır.Murad oktyabr ayının 16-sı Ağdam uğrunda döyüşlərə baş leytenant olaraq qatılır və on cəbhədə qəhrəmancasına döyüşərək şəhidlik mərtəbəsinə yüksəlir.22 noyabr günorta saatlarında doğulduğu kənddə torpağa tapşırılır.

Allah bütün şəhidlərə rəhmət ,ailələrinə səbr ,yaralı qazilərimizə şəfa versin.Şəhidlər vurulanda yox ,unudulanda ölür!

# Vətən müharibəsində iştirak etmiş - Cəmcəmlilər

*Vətəni sevmək azdır,*
*Onu qorumaq gərək.*
*Vətənim demək azdır,*
*Vətənin olmaq gərək.*

***Cabir Novruz***

Xalqımız illərdir ki, düşmən işğalında olan torpaqlarımızı sülh yolu ilə azad etmək istəyirdi. Ancaq mənfur ermənilər buna qeyri mövqeydən yanaşırdı. Öz murdar və çirkin əməllərindən əl çəkməyən, hər fürsətdə təxribatçı və fitnəkar hərəkətlərə əl atan düşmən növbəti dəfə atəşkəs rejimini pozdu.

27 sentyabr 2020-ci ildə başlanan müharibə Azərbaycan Ordusunun qətiyyətiylə, döyüş və mənəvi-psixoloji hazırlığıyla düşmənin illərlə möhkəmləndirdiyi müdafiə qurğularını darmadağın edərək dünyaya əsl qəhrəmanlığın və Vətən uğrunda necə mübarizə aparmağının nümunələrini göstərdi.

Bu müharibədə qazanılan qələbəmiz müzəffər ordumuzun qüdrətinin təntənəsi kimi tarixləşdi. Respublikamızın prezidenti İlham Əliyevin sərəncamı ilə noyabrın 8-i Zəfər Günü elan olundu.

Vətən Müharibəsində mənim doğma kəndim - Cəmcəmlinin də igid oğulları könüllü olaraq cəbhəyə yollandılar. Qısa da olsa onların döyüş yollarına nəzər salaq:

Abdurəşidov Qorxmaz Tələt oğlu- 2016-cı il aprel döyüşlərinin fəal iştirakçısı olub. İkinci Qarabağ müharibəsi zamanı yenidən hərbi xidmətə çağırılıb. Suqovuşan istiqamətində gedən döyüşlərin birində ağır yaralanaraq, bir neçə dəfə cəbhə bölgəsində və Bakı şəhərindəki hospitallarda əməliyyat olunub. Hazırda müalicəsi davam edir.

Abduləliyev Fərail Pənah oğlu- Müddətdən artıq xidmətdədir. Suqovuşan və Talış kəndi istiqamətində gedən döyüşlərdə iştirak edib. "Suqovuşanın azad olunması" medalı ilə təltif olunub. Hal-hazırda xidmətini davam etdirir.

Abıyev Nail Habil oğlu- Həqiqi hərbi xidmətdədir. Ağdam və Suqovuşan istiqamətində gedən döyüşlərdə iştirak edib.

Babaşov Nail Arzu oğlu- Cəbrayıl, Hadrut, Zəngilan, Daşkəsən və Hınaldaq istiqamətində gedən döyüşlərdə iştirak edib. "Cəbrayılın azad olunmasına görə" , "Zəngilanın azad olunmasına görə" , " Vətən müharibəsi iştirakçısı" medallarına və hərbi hissə komandirinin Fəxri fərmanına layiq görülmüşdür. Sərhəd Xidmətinin Çevik Hərəkət Qüvvələri Komandanlığının Xüsusi təyinatlı giziridir.

Əhmdəov Eldost Alim oğlu- Həqiqi hərbi xidmətdədir.Ağcabədi, Hadrut, Xocavənd istiqamətində gedən döyüşlərdə iştirak edib.

Əmirov Röyal Saleh oğlu- Çavuş rütbəsi ilə xidmətə başlayır. Vətən müharibəsində Xüsusi Təyinatlı Qüvvələrin tərkibində xidmətini davam etdirərək Fizuli, Cəbrayıl, Hadrut , Kəlbəcər və Şuşa istiqamətində gedən döyüşlərdə iştirak edib. Şuşa istiqamətində gedən döyüşlərdə ağır yaralanır. Müalicəsini bir neçə hospitallarda davam etdirib. Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə "Cəbrayılın azad olunmasına görə" , "Şuşanın azad olunmasına görə" və "Hərbi xidmətdə fərqlənməyə görə" medalları ilə təltif edilmişdir.

Əmirov Ruslan Uğur oğlu- Öncə Mingəçevirdə olub. Sonra isə Ağdamda - Mollalar və Ağalı kəndləri istiqamətində iştirak edib.

Əsgərov Əhmədağa İldırım oğlu- Ağcabədi, Qubadlı, və Laçın istiqamətində döyüşlərdə iştirak edib.

Hacalıyev Cavid Abid oğlu- Döyüşə ilk gedənlərdən olub. Tərtər, Goranboy istiqamətlərində gedən döyüşlərdə iştirak edib.

Hacalıyev Eltac Ərəstun oğlu- Müddətdən artıq hərbi xidmətdədir. Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak edib. Hal- hazırda xidmətini davam etdirir.

Hacalıyev Elməddin Alov oğlu- Həqiqi hərbi xidmətdədir. Fizuli bölgəsində olub. Hal-hazırda xidmətini davam etdirir.

Hacalıyev Şahgəldi Ərəstun oğlu- Həqiqi hərbi xidmətdədir. Cəbrayıl, Zəngilan istiqamətində gedən döyüşlərdə iştirak edib."Zəngilanın azad olunmasına görə" medalı ilə təltif olunub.

Qocalıyev Nurlan Qədim oğlu - Döyüş yolu Ağdam, Əhmədağalı kəndi və Ağdərə istiqamətindən keçib. Həqiqi hərbi xidmətdədir.

Məmmədov Sakit Elman oğlu- Ağcabədi, Şuşa və Daşaltı istiqamətində iştirak edib.

Mikayılov Nuran Kavuz oğlu -Həqiqi hərbi xidmətdədir. Cəbrayıl və Hadrut istiqamətlərində iştirak edib.

Nurməmmədov Ülvi Saleh oğlu- Ağdam və Xındırıstan kəndində döyüşlərdə iştirak edib.

Nurməmmədov Yafis Savalan oğlu- Öncə Mingəçevirdə olsa da sonra Naftalan, Suqovuşan, Talış, Ağdam istiqamətlərində gedən döyüşlərdə iştirak edib.

Rəncbərli Duresən İltifat oğlu- Müddətdən artıq hərbi xidmətdədir. Döyüş yolu Fizuli, Zəngilan və Şuşadan keçib. Hal-hazırda da xidmətini davam etdirir.

Səmədov Namiq Natiq oğlu- Xüsusi Təyinatlı hərbi hissədə həqiqi hərbi xidmətdədir. Döyüş yolu Fizuli, Cəbrayıl və Şuşa istiqamətindən keçib. "Şuşanın azad olunmasına görə" medalı ilə təltif olunub.

Yolçiyev Cəfər Vüqar oğlu- Müddətdən artıq hərbi xidmətdədir. Gizirdir. Fizuli, Cəbrayıl, Xocavənd, Şuşa istiqamətində gedən döyüşlərdə iştirak edib.

Məlumatlar adları çəkilən, ehtiyata buraxılmış Vətən müharibəsi iştirakçılarından və hal- hazırda hərbi xidmətdə olanların yaxınlarından alınmışdır.

Növbəti saylarda Vətən müharibəsində iştirak etmiş bölgələrimizdə yaşayan həmyerlilərimiz haqqında da məlumat verəcəyik.

***Günay Bayramlı***
***Rauf Babaşov adına Cəmcəmli kənd tam orta məktəbinin müəllimi***

# "Cari vergi ödəmələrinin hesablanması haqqında" Arayışın formasının və "Cari vergi ödəmələrinin hesablanması haqqında" Arayışın və tərtib edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında

Məlum olduğu kimi bəyannamə sahəsində mütərəqqi dəyişikliklərin aparılması, səmərəliliyin artırılması, bəyannamə (hesabat) formalarının təkmilləşdirilməsi, sadələşdirilməsi, vergi ödəyicilərinin məmnuniyyəti və kefiyyətin yüksəldilməsi məqsədilə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin 2 oktybar 2020-ci il tarixli 2017040101002800 nömrəli əmri ilə işçi qrupu yaradılmışdır. İşçi qrupu tərəfindən məlumat bazasının genişlənməsi ilə əlaqədar bəyannamələr və onların əlavə formalarında öz əhəmiyyətini və aktuallığını itirən, eləcə də redaktə edilməli olan sətir və sütunlar müəyyən edilmişdir.

Bununla əlaqədar olaraq, bir sıra bəyannamələrin və onların əlavələrinin formalarına, habelə onların tərtib edilməsi Qaydalarına müvafiq əlavə və dəyişikliklərin edilməsi zərurəti yaranmışdır.

Dəyişikliyə əsasən əvvəlki hesabat ilində "Mikro" sahibkarlıq subyekti olan vergi ödəyiciləri tərəfindən Vergi Məcəlləsinin 102.1.30-cu və 106.1.20-ci maddələrində qeyd edilən güzəşt məbləğindən istifdə etdikləri halda 291-ci sətrində "Əvvəlki hesabat ilində hesablanmış mənfəət(gəlir) vergisi" sətrində vergi məbləği güzəşt məbləği nəzərə alınmadan qeyd edilməlidir. Çünki cari hesabat dövründə vergi ödəyicisinin fəaliyyəti yenidən mikro sahibkarlıq sübyekti olduğu təqdirdə cari vergi məbləğinin hesblnması zamanı güzəşt məbləğinin nəzərə alınmasına 291-ci sətrində "Vergi Məcəlləsinin 102.1.30-cu və 106.1.20-ci maddələrinin tələbləri nəzərə alınmaqla cari vergi ödəməsinin həcmi" sətrində imkan yaradılmışdır. Cari hesabt dövründə digər sahibkarlıq subyektləri olan vergi ödəyicilərinin isə əvvəlki hesabat dövründə tətbiq edilmiş güzəşt məbəğindən istifadə edilməklə cari vergi məbləğinin hesablanması qanunvericilikdə nəzərdə tutulmamışdır.

Həmçinin dəyişiklikliyə əsasən "Cari vergi ödəmələrinin hesablanması haqqında" Arayışın 291-ci sətri "Əvvəlki hesabat ilində hesablanmış mənfəət (gəlir) vergisi" (VM-nin 102.1.30-cu və 106.1.20-ci maddələrinə əsasən güzəşt olunan məbləğ nəzərə alınmadan) kimi qeyd olunmuşdur.

Xatırladırıq ki, dəyişiklikdən əvvəl "Cari vergi ödəmələrinin hesablanması haqqında" Arayışın 291-ci sətri-"Əvvəlki hesabat ilində hesablanmış mənfəət (gəlir) vergisi" kimi qeyd olunmuşdur.

Dəyişiklikliyə əsasən 297-ci sətri "Cari vergi ödəməsinin həcmi" kimi qeyd olunmuşdur. 297-ci sətr dəyişiklikdən əvvəl "Əvvəlki hesabat ilində fəaliyyəti olmayan vergi ödəyicisinin cari vergi ödəməsinin həcmi" kimi qeyd olunmuşdur.

Həmin sənəd formasını və sənədin doldurulması qaydasını qoşma olaraq Sizə göndəririk.

Hesabat formaları və onların tərtib edilməsi qaydaları barədə məlumatları İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin www.taxes.gov.az rəsmi internet səhifəsinin "Bəyannamə" bölməsindən əldə edə bilərsiniz.

Əlavə olaraq bildiririk ki, qeyd olunan bəyannamə və onların əlavələrinin formaları 01.01.2021-ci il tarixdən qüvvəyə minir.

Vergi qanunvericiliyi və inzibatçılığı, sığorta haqlarının hesablanmasına və ödənilməsinə münasibətdə sosial sığorta, işsizlikdən sığorta və tibbi sığorta qanunvericiliklər ilə bağlı məlumat almaq üçün İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195), onlayn növbəyə yazılmaqla 4 saylı Ərazi Vergilər İdarəsinə (Şamaxı şəhəri Bakı-Qazax yolunun 118-ci km) və ya bütün vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

Qoşma: 1(bir) fayl.

***4 saylı Ərazi Vergilər İdarəsinin rəisi vəzifəsini müvəqqəti icra edən, idarənin rəis müavini, baş vergi xidməti müşaviri Fuad Alcanov***

# 2021/2022-ci tədris ili üçün DİN-in Polis Akademiyasında "hüquqşünaslıq" ixtisası üzrə əyani təhsilə kursantların qəbuluna dair elan

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi xüsusi təyinatlı təhsil müəssisəsi olan Polis Akademiyasına "hüquqşünaslıq" ixtisası üzrə əyani təhsil üzrə 200 kursantın qəbulu üçün müsabiqə elan edir.

Müsabiqədə - Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm, çağırışçı kimi Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda və həqiqi hərbi xidmətə yararlı olan, buraxılış siniflərində oxuyan və ya tam orta təhsilli, 16 yaşdan 18 yaşadək (2021-ci ilin avqust ayının 1-dək 16 yaşı tamam olacaq) Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları iştirak edə bilər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, 2021-ci ilin yanvar, aprel və iyul tarixli çağırışlarında həqiqi hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum edilmiş (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), eləcə də "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamə ilə müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən vətəndaşlar müsabiqəyə buraxılmır.

Sənədlərin qəbulu 2021-ci il yanvar ayının 25-dən mart ayının 6-dək bazar günləri istisna olmaqla hər gün saat 1000-dan 1700-dək namizədin təhsil aldığı təhsil müəssisəsinin yerləşdiyi inzibati ərazi üzrə polis idarə və ya şöbələrində həyata keçiriləcəkdir. Namizədlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

*- şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və surəti);*

*- təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında DİN-ə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd;*

*- yaşayış yeri üzrə tibb müəssisəsindən DİN-ə təqdim olunması üçün sağlamlıq haqqında arayış;*

*- ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və surəti);*

*- oxuduğu təhsil müəssisəsi tərəfindən DİN-ə təqdim olunması üçün verilmiş xasiyyətnamə;*

*- 9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).*

*Sənəd qəbulu ilə bağlı əlavə məlumat almaq üçün əlaqə telefonları: (012) 454-12-78, (012) 590-98-16.*

Polis Akademiyasında təhsilə, eyni zamanda daxili işlər orqanlarında xidmətə qəbulun ilkin şərtlərinə uyğun gələn namizədlərə müvafiq forma üzrə ərizə-öhdəlik yazmaq təklif olunur və onlar abituriyent hesab olunur.

Abituriyentlər fiziki hazırlıq imtahanı (fiziki hazırlıq üzrə minimal normativlər: turnikdə dartınma - çəkisi 80 kiloqramadək olanlar üçün - 8 dəfə, 80 kiloqramdan yuxarı olanlar üçün - 6 dəfə; qaçış 100 metr məsafəyə - 15 saniyə və 1000 metr məsafəyə - 4 dəqiqə; qollar üzərində bədənin döşəmədən qaldırılması - 20 dəfə; arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması - 20 dəfə) verməli, nazirliyin seçmə komissiyasından uğurla keçdikdən sonra Tibb İdarəsinin Xüsusi həkim komissiyasında müayinə olunub "Polis Akademiyasında təhsilə yararlı" olması barədə rəyi dərhal sənədləri toplanan polis orqanına təqdim etməlidirlər. Komissiyaların işi ilə bağlı şikayətlərə nəticələr elan olunduğu anda abituriyentin komissiya sədrinə müraciəti olduqda baxılır.

Fiziki hazırlıq normativlərindən birini ödəyə bilməyən, nazirliyin seçmə və ya həkim komissiyalarından keçə bilməyən və ya qəbul imtahanlarınadək həkim komissiyasının rəyini təqdim etməyən abituriyentlər müsabiqədən kənarlaşdırılır.

Müsabiqəyə buraxılan abituriyentlərin siyahısı III ixtisas qrupu fənləri üzrə qəbul imtahanlarına buraxılmaları üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə göndərilir. İmtahanlar Azərbaycan və rus dillərində keçirilir.

Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşdirmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən edilir və abituriyentlər bu məqsədlə həmin Mərkəzin internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

DİN-in Polis Akademiyasına qəbul olunmuş kursantlar 14 avqust - 14 sentyabr 2021-ci il tarixdə Akademiyada ilkin hazırlıq kursuna cəlb edilir, dərslər 15 sentyabrda başlamaqla tədris azərbaycan dilində aparılır, təhsil müddəti 5 ildir.

Təhsil müddətində kursantlar dövlət hesabına yataqxana, xüsusi geyim forması, təqaüd və yeməklə təmin olunur, Akademiyanın ərazisində yerləşən yataqxanada yaşayırlar.

Məzunlara "hüquqşünaslıq" ixtisası, "polis leytenantı" xüsusi və "ehtiyatda olan leytenant" hərbi rütbələri verilməklə daxili işlər orqanlarında müvafiq vəzifələrə təyin edilirlər.

***Baş Kadrlar İdarəsi***

# AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ POLİS ORQANLARINDA ORTA RƏIS HEYƏTİ VƏZİFƏLƏRİNƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR MÜSABİQƏ ELAN EDİR

Respublikanın şəhər, rayon polis orqanlarında /Naxçıvan Muxtar Respublikası, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu istisna olmaqla/ polis sahə rəisi vəzifələrinə xidmətə qəbul ilə əlaqədar müsabiqə keçirilir.

Cəmi 50 vəzifənin komplektləşdirilməsi ilə əlaqədar keçirilən müsabiqə test imtahanından və müsahibədən ibarətdir. Test imtahanı - "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"nin tələblərinə cavab verən namizədlərlə qanunvericilik aktları və nəzəri bilik sahələri üzrə test imtahanının proqramı, eləcə də məntiqi nəticə çıxarmaq qabiliyyətini əhatə edən suallar əsasında aparılır. Test imtahanından müvəffəqiyyətlə keçmiş iştirakçıların xidməti vəzifələrini yerinə yetirən zaman qanunvericilik aktlarını tətbiq etmək üçün bilik və bacarığı, ünsiyyət yaratmaq, özünü təqdimetmə bacarığı, təmkinliyi, fikir və rəyini ifadə etmək qabiliyyəti kimi xüsusiyyətləri Daxili İşlər Nazirliyinin Mərkəzi Müsabiqə Komissiyası tərəfindən keçirilən müsahibə zamanı qiymətləndirilir.

Müsabiqədə Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrində hüquqşünas ixtisası üzrə təhsil almış, yaşı 28-dək olan, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, əvvəllər özü və yaxın qohumları məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla) "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"də müəyyən olunmuş şərtlərə cavab verən Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları (daxili işlər və digər hüquq mühafizə orqanlarında zabit vəzifələrindən xaric edilmiş şəxslər istisna olmaqla) iştirak edə bilərlər.

Müsabiqə qaliblərinin təyinatlarından sonra onların xidməti üç yerləri Daxili İşlər Nazirliyinin Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda yerləşən polis orqanlarına 5 il müddətində dəyişdirilməyəcəkdir.

Müsabiqədə iştirak etmək istəyən şəxslər 2021-ci il fevral ayının 11-dən mart ayının 12-dək http://www.mia.gov.az/index.php?/az/content/29799/ ünvanda yerləşdirilmiş elektron ərizə formasını və qısa anket məlumatlarını şəxsən dolduraraq elektron poçt vasitəsi ilə bki@mia.gov.az ünvanına Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsinə göndərməlidirlər.

Elektron ərizələr Daxili İşlər Nazirliyində qeydiyyatdan keçirilərək namizədlər barədə məlumatlar Baş Kadrlar İdarəsi tərəfindən öyrənildikdən sonra müvafiq qərar qəbul edilir.

Namizədlər məlumatlandırıldıqdan sonra aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

**- şəxsiyyət vəsiqəsi;**
**- ali təhsil haqqında diplom;**
**- hərbi bilet;**
**- əmək kitabçası (olanlar üçün);**

Təqdim olunmuş sənədlər əsasında şəxsin müsabiqədə iştirakı üçün zəruri sənədləşmə aparılır.

Müsabiqədə iştirak edəcək şəxslərin sağlamlıq vəziyyəti və fiziki hazırlıq səviyyəsi daxili işlər orqanları əməkdaşları üçün müəyyən olunmuş normativlər üzrə yoxlanılır.

"Daxili işlər orqanlarında xidmətə qəbul olunmaq üçün namizədlərlə müsabiqənin keçirilməsi Qaydaları", test imtahanının proqramları və fiziki hazırlıq üzrə ödənilləcək normativlər Daxili İşlər Nazirliyinin www.mia.gov.az ünvanlı Veb saytında yerləşdirilmişdir.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları:**
**(012) 590-93-51; (012)-590-97-42; (012) 590-92-37; 012) 590-80-66, (012) 590-95-23, (012) 590-93-45.**

# 2021-ci ilin fevral ayı ərzində vergi orqanına təqdim edilməli olan bəyannamələr, hesabatlar, ödənilməli vergilər və sığorta haqları barədə yaddaş

**22 fevral 2021-ci il tarixədək**

**Gəlir vergisi (Xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübüdür. Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablamalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidir.

**Gəlir vergisi (İdman mərc oyunları, lotereyalar, habelə digər yarışlar və müsabiqələr üzrə):** İdman mərc oyunlarından, lotereyalardan, habelə digər yarışlar və müsabiqələrdən uduşlar (mükafatlar) əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır. İdman oyunları ilə əlaqədar aparılan idman mərc oyunlarından, lotereyaların keçirilməsindən, habelə digər yarışlardan və müsabiqələrdən uduşlar (mükafatlar) əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində gəlir vergisini hesablayaraq tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və həmin müddətədək "Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsi"ni vergi orqanına verməyə borcludurlar. Lotereyaların keçirilməsindən, digər yarışlardan və müsabiqələrdən gəlir (mükafat) rezident şəxslər tərəfindən ödənildiyi halda ödəməni həyata keçirən şəxslər, həmin gəlirlər Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezident şəxslər tərəfindən ödənildikdə isə bu gəliri əldə edən şəxsin bank hesabının olduğu yerli bank, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru ödəmə mənbəyində gəlir vergisi hesablayaraq tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və həmin müddətədək "Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsi"ni vergi orqanına təqdim etməyə borcludurlar.

**Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**Aksizlər:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**Yol vergisi:** Yol vergisi üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq "Yol vergisinin bəyannaməsi"ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**Sadələşdirilmiş vergi (Daşınmaz əmlakın təqdim edilməsi üzrə):** Bu fəaliyyət üzrə sadələşdirilmiş vergi üçün hesabat dövrü aydır. Daşınmaz əmlakın təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq "Daşınmaz əmlak təqdim edən şəxslərdən ödəmə mənbəyində tutulan sadələşdirilmiş verginin bəyannaməsi"ni vergi orqanına verməyə borcludurlar.

**Sadələşdirilmiş vergi (Pul vəsaitlərinin nağd qaydada çıxarılması üzrə):** Bu fəaliyyət üzrə sadələşdirilmiş vergi üçün hesabat dövrü aydır. Hüquqi şəxslərə və fərdi sahibkarlara bank hesablarındakı pul vəsaitlərinin nağd qaydada verilməsini həyata keçirən yerli banklar, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru tərəfindən 1 faiz hesablanan vergini vəsaiti alan şəxsin bank hesabından tutulur, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergi dövlət büdcəsinə köçürülür və həmin müddətədək "Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsi" vergi orqanına təqdim edilir.

**Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**Sığorta müqaviləsi vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

# ELANLAR

Qobustan rayon Təklə kənd sakini Alışov Eyvaz Həmid oğluna etibarnamə ilə verilmiş 10 HT 595 nömrə nişanlı VAZ-21074 minik avtomobilinə məxsus AA№255237 qeydiyyat şəhadətnaməsi itmişdir. Tapan şəxslərdən xahiş olunur Qobustan RPŞ-nə təqdim etsinlər.

Babaşov Fəxri Babasən oğluna məxsus, kənd təsərrüfatı texnikası idarə etmək üçün 16 aprel 1994-cü ildə alınmış AB 174356 seryalı sürücülük vəsiqəsi itmişdir. Tapan şəxslərdən xahiş olunur Qobustan DAİM-nə təqdim etsinlər.

*Təsisçi:* Qobustan Rayon İcra Hakimiyyəti
www.qobustan-ih.gov.az

*Baş redaktor:*
Ruslan Şahbazov
Tel.: (050) 524 28 10
(070) 224 28 10

*Ünvan:*
Qobustan şəhəri, Heydər Əliyev prospekti. Qobustan Rayon İcra Hakimiyyətinin binası.
Qəzet ayda iki dəfə çıxır

Qəzet "Son dəqiqə" mətbəəsində çap olunmuşdur
Tiraj: 2000
E_mail:qobustanqazeti@mail.ru